

# İnsanla torpağın ortaq bayramı

*Lənkəranda "Çay, Çəltik, Sitrus festivalı" keçirilmişdir*



Qədim zamanlardan adamlar payızda əzab-əziyyətlə yetişdirdikləri məhsulu çöllərdən, meyvələri bağ-bağatlardan yığıb-yığışdırdıqdan sonra bir yerə toplaşıb bayram edər, şənlənərdilər. Oğul evləndirmək, qız köçürmək kimi toy mərasimləri də əsasən payızda olardı. "Məhsul bayramı" deyəndə isə yaşlı və orta nəsil nümayəndələrinin gözləri qarşısında keçən əsrin 70-ci illəri canlanır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında o zaman respublikamız geriliyin daşını ataraq SSRİ miqyasında öncül sıralara çıxdı, bütün sahələrdə nailiyyətlər əldə etdi. O zaman Azərbaycanın hər bir rayonunda məhsul bayramı keçirilirdi.

Ölkə rəhbəri İlham Əliyevin qeyri-neft sektorunun mühüm sahəsi olan kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı gördüyü tədbirlər sayəsində aqrar bölmənin məhsullarının kəmiyyət və keyfiyyəti ildən-ilə yüksəlir. Elə buna görə də hər il rayonlarda məhsul bayramları, festivallar keçirilir. Yurdumuzun "Cənub mirvarisi" olan Lənkəranda keçirilən "Çay, Çəltik, Sitrus festivalı" da belə bayramlardan biri idi. Rayonun bütün qəsəbə və kəndlərindən gələnlər Lənkəran şəhərinin baş meydanına - Heydər Əliyev Xatirə parkına toplaşmışdılar. Başdan-başa bəzədilmiş parkda böyük bir izdiham, coşqu yaşanırdı. Musiqi sədaları pərdə-pərdə ətrafa yayılırdı. Xatirə parkının girişi Qala maketi, Lənkəranın emblemi, atributları, şüarlar və pannolarla bəzədilmişdi. Meydanın bir tərəfindəki çoxmərtəbəli inzibati binanın fasadından keçirilən festivala, Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni ilə aid şüarlar, emblemlər, plakatlar asılmışdı. Parkın müxtəlif yerlərində qurulmuş sərgi pavilyonlarında çay, çəltik, sitrus meyvələri, habelə Lənkəran torpağının digər nemətləri düzülmüşdü. Buradan ətrafa baxanda min illərin şahidi olan silsilə dağlar görünür.

*Uzanır silsilə uca dağları,*
*Narıngi, portağal, limon bağları.*
*Allahın payıdır sərvəti, varı,*
*Burda gül-çiçəkdir hər tərəf, hər yan.*
*Gözəllər gözəli gözəl Lənkəran.*

Səhər saat 11 radələridir. Festival qələbə, mübarizlik, bayram əhvali-ruhiyyəsini bildirən "Cəngi" sədaları altında start götürür. Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, tədbirə dəvət olunmuş qonaqlar, ayrı-ayrı təşkilatların nümayəndələri parka daxil olaraq bu torpağın nemətlərindən əllərində xonça tutmuş milli geyimli qızların qarşısından keçirlər.

Bu zaman aparıcıların səsi eşidilir:

- Hörmətli qonaqlar, əziz dostlar, bayram mərasiminə xoş gəlmişsiniz! Biz sizi "Çay, Çəltik, Sitrus festivalı"nda salamlamaqdan qürur duyuruq!

Lənkəranın əsrarəngiz gözəllikləri, dadlı nemətləri, əməksevər insanları haqda danışan aparıcılar sonra hamının diqqətinə hakim kəsilən bu sözləri əlavə edirlər:

- Ulu öndər 1998-ci ildə Lənkəranda olarkən öz dərin hörmət və ehtiramını belə bildirmişdir: "Siz Azərbaycanın bu gözəl diyarının qurub-yaradanlarısınız, siz bölgənin müdrik insanlarının varislərisiniz. Siz Talışxanovlar, generallar süləsinin varislərisiniz. Siz II Düya müharibəsində qəhrəmanlıq göstərmiş və iki dəfə Sovet İttifaqı Qəhrəmanı adı almış general Həzi Aslanovun varislərisiniz, onun həmyerlilərisiniz, onun doğmalarısınız. Siz burada - Lənkəranda, bu dağların ətəyində Azərbaycan elmini, mədəniyyətini, təhsilini inkişaf etdirən dəyərli insanlar yetişdirmişsiniz. Biz bunlarla fəxr edirik, bütün Azərbaycan xalqı da bu dəyərli insanlarla fəxr edir".

Fonda "Yanar ürək" mahnısı səsləndirilir. Rayon rəhbərliyi, qonaqlar, ictimaiyyət nümayəndələri ulu öndərin buradakı abidəsi önünə gül-çiçək dəstələri qoyurlar. Aparıcılar qeyd edirlər ki, bugünkü "Çay, Çəltik, Sitrus festivalı" bütövlükdə il ərzində kənd təsərrüfatında, eləcə də sənaye, elm, təhsil, səhiyyə, mədəniyyət sahələrində əldə olunmuş uğurları özündə cəmləşdirir. Festivalın açılış lentini kəsmək üçün Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı T.Qaraşov dəvət olunur. Elə bu zaman Lənkəran Mədəniyyət Mərkəzinin qızlardan ibarət rəqs ansamblı "Azərbaycan çayı" adlı rəqs kompozisiyasını təqdim edir.

Çay Lənkəranın əvəzsiz nemətidir. Elə buna görə də festivalın adının ilk sözü onunla başlayır. Çayın şəninə çoxlu şeirlər yazılıb, mahnılar bəstələnib. Tədbir iştirakçıları ilk olaraq "Çayımızın dadı var" pavilyonuna baş çəkirlər. Burada çayçılıq təsərrüfatlarının məhsulları, çay süfrəsində istifadə olunan bal, mürəbbə, şirniyyat sərgisi qurulmuşdur. Adamlar yaxınlaşıb istədikləri çaydan içirlər. Xalq artisti Ş.Ələkbərovanın ifa etdiyi məşhur "Çay" mahnısı səsləndirilir. Qeyd etdiyimiz "Lənkəran" şeirimdən bir bəndi xatırlayıram:

*Çayı məlhəm olur ürək yananda,*
*Yanında dilimli limon olanda.*
*İçsən, durulacaq damarda qan da.*
*Tapılar qoynunda hər dərdə dərman,*
*Gözəllər gözəli gözəl Lənkəran.*

Aparıcı bayrama gələnlərə Lənkəran çayı haqqında məlumat verir: Azərbaycanda çay bitkisi ilk dəfə 1912-ci ildə Lənkəran bölgəsində əkilmişdir. İlk çay fabriki də 1937-ci ildə Lənkəranda tikilmişdir. Bundan sonra Azərbaycanda çayın kütləvi şəkildə istehsalına başlanılmışdır. Ona görə də bu gün burada ilk növbədə haqqında söhbət açdığımız Lənkəran çayının bayramıdır. Hazırda rayonda 568 hektar çay plantasiyası mövcuddur. Bunun 456 hektarı yeni salınmışdır. Məhsul verən 214 hektar sahədən 201 hektarı son illərdə əkilmişdir. Keçən il rayonda 313 ton yaşıl çay yarpağı yığılmış və bundan 3 milyon manat gəlir əldə edilmişdir. Rayonda "Azərçay" MMC tərəfindən 250, "Yaşıl Çay" fermer təsərrüfatı tərəfindən 61, "Tuadoçay" MMC tərəfindən 30 və "Lənkərançay - 5" ASC tərəfindən 12 hektar yeni çay plantasiyaları salınmış və bəzi plantasiyalar bərpa edilmişdir. Əvvəllər rayonda 1-2 adda çay əkilib-becərilirdisə, indi onların sayı xeyli artmışdır. Hazırda rayonda "Buket çayı", "Pürrəngi çay", "Qara məxməri çay", "Narın N 1 çay", "Premium çayı", "Feyxoa çayı", "Xan çayı", "Zəncəfilli çay", "Limonlu çay", "Nanəli çay", "Kəklikotulu çay", "Tibet çayı", "Ekstra çayı", "Qızıl buket", "Çayrud", "Fərmançay" və başqa çay növləri istehsal olunur.







Qonaqlar pavilyonları gəzib-dolaşdıqca, buradakı nemətlərə baxdıqca öyrənirlər ki, tanınmış lənkəranlı balçılar İltifat Həsənov, Tarıyel Quliyev, İlkin Nəzərov, Rafail Paniyev bu il yüksək məhsul əldə etmişlər. İ.Həsənov 120 arı ailəsindən 1 ton 600 kiloqram bal götürmüşdür.

Lənkəranda yetişən meyvələrdən yerli əhali müxtəlif adda mürəbbələr bişirir. Buradakı konserv kombinatı da bu sahədə yaxşı ənənəyə malikdir. Onun istehsal etdiyi mürəbbələr çox dadlı və ləzzətlidir. "İpək yolu", "Alov" şirniyyat evlərində hazırlanan məhsullar çay süfrəsinin bəzəyidir.

Festival davam edir. Növbəti musiqi nömrəsini bu torpaqda böyüyüb boya-başa çatan Cavad Rəcəbov ifa edir. Onun oxuduğu "Lənkəran" mahnısının sədaları altında Fatimə Mirzəzadə və Boladi-1 kənd folklor qrupunun rəqs kollektivi rəqs edir. Azyaşlı oğlan və qızlar da onlara qoşulurlar.

Üzərində "Lənkəran düyüsü - dillər əzbəri" sözləri yazılmış pavilyon da iştirakçıların marağına səbəb olan guşədir. Qonaqlar rayonda yetişdirilən düyü növləri ilə tanış olurlar. "Cənub Aqro" MMC, "Astaraçay" MMC, habelə fermerlərdən Rüfət Əsgərov və Səyyar Abdullayev yetişdirdikləri düyü növlərini nümayiş etdirirlər. İstehsalçılar özlərinin yetişdirdikləri düyüdən bişirilən plov növlərini də təqdim edirlər.

Ümumiyyətlə, çəltikçilik Lənkəran əhalisinin dədə-baba peşəsidir. Burada elə toy-düyün, elə bayram, elə məclis olmaz ki, düyü qazanı asılmasın, plov bişirilməsin. Əsrlər boyu düyü yerli əhalinin əsas qidaları sırasında olmuşdur. Lakin sonralar əsassız olaraq "rentabelsiz"bitki hesab edilərək əkin dövriyyəsindən çıxarılmışdı. Bu gün dövlət başçısının göstərişi ilə çəltik istehsalına diqqət və qayğı artmışdır. Təkcə cari il 526,5 hektarda çəltik əkilmiş, qabaqcıl texnologiyaların tətbiqi nəticəsində 1700 ton yüksək keyfiyyətli məhsul hasilə gətirilmişdir. Əldə olunan "Ənbərbu", "Haşimi", "Həsəni", "Qırmızı Ənbərbu", "Çampo", "Sədri" düyü növləri indi böyük rəğbətlə alınır. Yaxın gələcəkdə çəltik əkinləri sahəsinin 1000 hektara çatdırılması planlaşdırılmışdır.

Lənkəranda elə bayram, elə el şənliyi olmur ki, "Nənələr" folklor ansamblı orada çıxış etməsin. Bu gün də kollektiv buradadır və onların oxuduqları nəğmələr festivala xüsusi rəng qatır.

Aparıcı intonasiya ilə bu torpağın yetirməsi olan Şəkər Aslanın şeirini deyir:

*Yayılıb şöhrəti yaşıl diyarın,*
*Dünyada torpağı insan tanıdır.*
*Bu çay bayramına gələn qonağın,*
*Hər biri bir kitab qəhrəmanıdır.*

Üzərində "Sitrus bağının möcüzəsi" sözləri yazılmış pavilyonun ətrafı da qələbəlikdir. Yerli adamlar, ayrı-ayrı kollektivlər də qonaqlarla birlikdə pavilyona tamaşa edirlər. Qonaqların hər bir meyvəyə diqqətlə baxması onlarda qürur hissi doğurur. Sitrus bağlarının möcüzəsi təkcə onun meyvələrinin qızılı rəngində deyil, həm də faydasında, əhəmiyyətindədir. Sitrusçuluğun şah əsəri olan limon dünyanın ən faydalı 10 meyvəsi sırasındadır. Orqanizmdə qanın tənzimlənməsində, damarlarda kirəcləşmənin qarşısının alınmasında rolu böyükdür. Lənkəranda ümumilikdə 1228 hektar sitrus meyvəsi bağları var. Həmin bağlarda 1200 nəfər çalışır. Ötən il sitrus bağlarından 12,8 min ton məhsul yığılaraq respublikamızın və Rusiya Federasiyasının bazarlarında satılmışdır. Builki məhsul ondan da çoxdur. 2015-ci ildən başlayaraq "Gilan Orchards" MMC Cənubi Koreyadan "Hallobonq" sitrus meyvə ağacları gətirərək 100 hektar sahədə əkmişdir. Sitrus meyvələri pavilyonu qarşısında da incəsənət işçiləri öz ustalıqlarını nümayiş etdirirlər. Müğənni Zaur Babayev zəhmət adamlarına həsr olunmuş nəğməsini təqdim edir. Rəqqasə qızlar onun oxuduğu mahnının ritminə uyğun rəqs edirlər.

Rayonda turizmin inkişafı ilə əlaqədar son illər bir çox tədbirlər həyata keçirilmişdir. Bunun nəticəsidir ki, buraya gələn turistlərin sayı ildən-ilə artır. Lənkəran mətbəxinin dadlı, ləzzətli yeməkləri qonaqları razı salır. İndi rayon ərazisində 10-dan çox turist obyekti fəaliyyət göstərir. "Xezer Palace" öz qapılarını turistlərin üzünə 2017-ci ilin sentyabrından açmışdır. Həmin gün burada keçirilən təntənəli mərasimin lentini Prezident İlham Əliyev kəsmişdir. Burada istirahət üçün hər bir şərait mövcuddur.

Festival iştirakçıları hotel kompleksinin, "Palıdlı sahil" istirahət mərkəzinin, "Xan Lənkəran" hotel-restoranının hazırladığı müxtəlif növ ləziz yeməklərlə tanış olurlar. Müğənni Nurlan Nəzərovun ifa etdiyi "Xan Lənkəran" mahnısı festivalın ruhuna uyğundur. Bayram tədbirindəki "Dəmirağac" sənətkarlıq pannosu, tarix-diyarşünaslıq muzeyinin eksponatları, bağça uşaqlarının hazırladıqları əl işləri, kitab sərgisi və digər eksponatlar da tamaşaçıların marağına səbəb olur. Mədəniyyət mərkəzinin oğlanlardan ibarət rəqs kollektivinin təqdim etdiyi "Azərbaycan təranələri" rəqsi də hamıda heyranlıq yaradır.

Tədbir çərçivəsində ilin yekunlarına görə fərqlənən fermerlərə icra hakimiyyətinin fəxri diplomları və qiymətli hədiyyələr təqdim olundu.

Bax, beləcə çal-çağır, xoş əhvali-ruhiyyə şəraitində keçirilən festival başa çatır. Səhər Xəzərdən doğan günəş axşamüstü yavaş-yavaş qüruba doğru enir. Bütün bunları seyr etdikcə Lənkəran haqqındakı şeirimin daha bir bəndi yadıma düşür:

*Hüsnü başdan-başa bir tamaşadır,*
*İnsanla təbiət burda qoşadır.*
*Adama xoş ovqat, xoş gün yaşadır,*
*Xəzərdən gün çıxıb, söküləndə dan,*
*Gözəllər gözəli gözəl Lənkəran.*





**Seyran CAVADOV,**
**"Azərbaycan"**





